30 aprel 2016

www.kaspi.az

# ŞAHLIQ ZİRVƏSİ

## (“Yeddi gözəl” haqqında)



Məmməd Qocayev

“Xəmsə”nin dördüncü hissəsi “Yeddi gözəl” adı ilə tanınmışdır. Nizami yaradıcılığının bilicisi və tədqiqatçısı Rüstəm Əliyev qeyd edir ki, “poemanın əsl adı başqa olub. Şair əsərə “Yeddi ulduz” adını ömrünün axırında, özü də şərti olaraq verib. Qədim əlyazmalarından və daşbasma üsulu ilə çap edilmiş nəşrlərdən aydın olur ki, poema əvvəlcə baş qəhrəman Bəhramın şərəfinə “Bəhramnamə” adlanırmış. Axı, Nizaminin digər üç poeması da baş qəhrəmanların adı ilə adlandırılıb...” Bu haqda məşhur nizamişünas Y.Bertelsin fikri də maraqlıdır: “Beləliklə, qəhrəmanlıq dastanının başlığı “namə”, yəni kitab sözü əlavə olunmaqla bir addan ibarət olmalı idi ki, bunu da Nizami axırıncı poeması “İsgəndərnamə”də nümayiş etdirmişdir. Birinci yerdə məhəbbət münasibətləri duran romantik poemada əsərin adı iki baş qəhrəmanın adından ibarət olur. Maraqlı burasıdır ki, bizə qədər gəlib çatan bütün qədim yunan romanlarının başlıqları elə beləcə də adlandırılmışdır, çox güman ki, bu oxşarlıq təsadüfi deyildir”. Deməli, Nizaminin məhəbbət mövzusunda yazılmış poemaları (“Xosrov və Şirin”, “Leyli və Məcnun”) iki baş qəhrəmanın adı ilə, şahlıq mövzusuna həsr olunmuş poemalar (“Bəhramnamə”, İsgəndərnamə”) isə bir baş qəhrəmanın adı ilə adlandırılmışdır. Nizaminin əsərlərinin başlıqlarında bir növ onların mövzuları öz əksini tapmışdır. Hər iki qəhrəmanın adı ilə adlanan poemalarda məhəbbət, bir qəhrəmanın adı ilə adlanan poemalarda isə şahlıq mövzusu əsas mövzu kimi çıxış edir. Deməli, “Bəhramnamə” poemasının əsas mövzusu şahlıq mövzusudur. “Yeddi gözəl”də Nizami bütün yaradıcılığının əsas mövzusu olan insan məsələsini şahlıq mövzusu çərçivəsində açıqlamaq istəmişdir. Bu mövzu Nizaminin sonuncu əsərində daha da dərinləşəcək və fəlsəfi vüsət kəsb edəcək.

Beləliklə də, Nizami yaradıcılığının əsas məsələsi olan insan problemi bir dəfə eşqdə, bir dəfə də şahlıqda öz təhlilini tapır. Nizami insanının Xosrovdan Məcnuna qədər keçdiyi kamilləşmə yolu eşq, Bəhramdan İsgəndərəqədərki yol isə şahlıq yoludur. Aşiqin və ya şahın ziddiyyətlərdən keçərək bir insan kimi kamilləşməsi Nizami yaradıcılığının ana xəttini təşkil edir. Şahlıq mövzusunda şair eşq mövzusuna nisbətən daha böyük və vacib məsələlərə toxunur. Eşqdə insan öz mənəvi, ruhi mahiyyətini özü ilə başqası arasındakı münasibətlərdə büruzə verirsə, şahlıqda onun insanlıq mahiyyəti məmləkətə, xalqa, dünyaya münasibətdə açıqlanır. Aşiq özünü məşuqəsinə qurban verirsə, şah özünü xalqa qurban verməlidir.

Başqa poemalarda olduğu kimi “Yeddi gözəl”də də Nizami insan probleminin həllini şəxsiyyətin mənəvi-ruhi kamilləşməsi yolunda axtarır. Bu yolda “adam [oğlu] mələk səviyyəsinə yüksələ bilər”. Ruhi kamillik zirvəsinə çatmış insan əbədiyyətə qovuşmuş olur. Əbədiyyətin simvolu olan dirilik suyunu yalnız Xızır peyğəmbər içə bildi, çünki o kamil ruhi bir varlıq idi. Oğlu Məhəmmədə nəsihətində Nizami onu kamilləşmə yoluna çağıraraq yazır:

*Xızır kimi sən özünü tanı (dərk elə)*
*Ki, sən də onun kimi dirilik suyunu içə biləsən (48).*
*Ağıl bağışlanmış can Tanrının bizə bəxşişidir.*
*Can ağılla əbədi diridir.*
*Bunların ikisinin hasili yalnız o Vahiddir*
*Və heç şübhə yoxdur ki, onun hər ikisi də səndə vardır.*
*Bunların hər ikisinin vasitəsilə o Vahidə çatmasan,*
*Heç kimə demə ki, sən hələ heç kimsən.*
*O Vahidi tapan kimi hər ikisindən (ağıl və candan) əl çək,*
*Ayağını hər iki aləmin başına qoy (49).*

“Oğlum Məhəmmədə nəsihət” fəslindən götürülmüş bu parçada Nizaminin insan konsepsiyasının əsasları ifadə olunmuşdur. Burada “insanın mahiyyəti nədən ibarətdir və onun son məqsədi nədir?” suallarına cavab tapmaq olar.

Xızır kimi yalnız özünü tanımış insan dirilik suyundan içib əbədiyyətə çata bilər. Dirilik suyu Nizami yaradıcılığında ölməzliyin rəmzi kimi çıxış edir. Əbədiyyətə çatmaq “can ilə ağlın” vəhdətindən yaranan ruhi vəziyyətdir. Bu vəziyyət insana Vahidi dərk etməyə və imana çatmağa imkan yaradır. “O Vahidə çatan kimi hər ikisindən (ağıl və candan) əl çək”. Beləliklə, Nizami insanın kamillik zirvəsini, əbədiyyət məqamını onun imana çatmasında və Allahı tanımasında görür. Allaha canı-dildən inanan insan sözün həqiqi mənasında kamil insandır. Nizaminin insan konsepsiyası tam mənada dini dəyərlərə əsaslanır və islam dini bəşəriyyətin təkamül tarixində son zirvə kimi qəbul olunur. İnsanlığın zirvəsi də Allaha qovuşmaqda və ona iman gətirməkdədir. İnsanın əbədi axtarışlarından biri olan ölməzlik axtarışı da məhz dində reallaşır. Burada insanın ruhi kamilləşmə yolu sona yetir. Bu zirvədən o yana yol yoxdur.



“Yeddi gözəl” öz quruluşu etibarı ilə dörd hissədən ibarətdir. Birinci bölmə Allaha, peyğəmbərə və şaha müraciətdən ibarətdir. Bu hissəni əsas hadisələrin təsviri üçün metodoloji baza adlandırmaq olar. İkinci bölmədə Bəhramın dünyaya gəlməsindən başlayaraq onun iki şir arasından tac götürməsi, yəni şahlıq taxtına çıxmasına qədər olan hadisələr öz əksini tapır. Bu dövrü Bəhramın şahlıq yolu adlandırmaq olar. Üçüncü hissədə Bəhramın şahlığı təsvir olunur. Bu hissə Bəhramın taxta əyləşməsindən başlayaraq onun yeddi kümbəzdə yeddi gözəllə işrətə başlaması ilə bitir. Bu dövr Bəhramın şahlığı dövrüdür. Dördüncü hissədə yeddi gözəlin Bəhrama yeddi müdrik rəvayət danışması və Bəhramın şahlığının sonu təsvir olunur. Şahlıq şövkəti Bəhramı tam mənada qane etmədi və o, nəhayət, ali bir hikməti dərk etdi ki, insan həyatının son məqsədi mənəvi-ruhi kamilliyə çatmaqdır. Bəhram da həyatının sonunda ilahi hikməti tanımaq məcburiyyəti qarşısında qalır. Nizami onu da öz başqa qəhrəmanları kimi dinin astanasına gətirib çıxarır. Ancaq Bəhram da Xosrov və Məcnun kimi islam dinini qəbul etmir, bu dini hikməti dərk etməyə hazır olmur. Lakin o da Xosrov və Məcnun kimi insanpərəstlikdən imtina etmək dərəcəsinə çatıb, allahpərəstliyin astanasında dayanır. Nizaminin fikrincə, nə eşqdə, nə də şahlıqda insan özünü ideal bir məxluq, kamil bir varlıq kimi təsdiq edə bilmir.

Beləliklə, Nizami “Yeddi gözəl”də insanı şahlıq mövqeyində sınaqdan keçirir. Şahlıq da eşq kimi insanı ucaldan, ona öz imkanlarını həyata keçirməyə imkan verən bir vəziyyətdir. Lakin nə şahlıq, nə də eşq insanın ideal bir varlıq kimi formalaşmasına zəmanət vermir. Bəhram şahlıq taxtına layiq bir şəxsiyyət kimi yetişib formalaşır. Lakin şahlıq taxtında olarkən o, şahlıq məsuliyyətindən çox şahlığın verdiyi imtiyazlar haqqında düşünür, zəhmətdən çox nəşəyə vaxt sərf edir.

Mövzu və məzmun baxımından Bəhram şücaətdən ədalətə doğru bir təkmilləşmə yolu keçir. O, özünü əvvəlcə fərasətli bir cəngavər kimi göstərərək Bəhram Gur ləqəbi qazanır, sonra isə taxta əyləşib Bəhram şah kimi ad çıxarır. Şahlıq Bəhramın bir insan və bir şəxsiyyət kimi inkişafında ən yüksək zirvə olur. Bəhram insanın nəyə qadir olduğunu bu yolda öz əməlləriylə göstərir. Şahlıq yolu möhtəşəmlik və şövkətlilik yoludur, fəaliyyət meydanıdır. Bu meydanda Bəhram özünü şərəflə təsdiq edir, bütün dünya nemətlərinə və ən ali mənsəblərə layiq olduğunu göstərir. Yeddi iqlim padşahının qızı yeddi gözəl Bəhramın layiq olduğu ən yüksək mükafatdır. Sonra Nizami öz qəhrəmanının daxili aləmini təsvir edir, onun əqli və mənəvi kamilləşməsindən danışır. Bu yol Bəhramı hakimlik mərhələsinə çatdırır, onun yüksək əql sahibi olduğunu göstərir.

Beləliklə də, Bəhramın xarakterinin inkişaf yolu cəngavərlikdən (Bəhram Gur) şahlıq şövkətinə (Bəhram şah), oradan da ədalət hikmətinə doğrudur. O, əvvəlcə bahadırlıq zirvəsinə çatır, sonra iki şir arasından tac götürüb şahlıq taxtına yüksəlir, nəhayət, əqli kamilləşmə yolunda həkimlik zirvəsinə çatır. Bu üç nailiyyətin hamısı Bəhramın özünütəsdiq cəhdləri, bu yoldakı uğurlarıdır və onların heç birində özünü qurban vermə cəhdi yoxdur. Yalnız ədalət hikmətini dərk etdikdən sonra Bəhram bütün əvvəlki səlahiyyətlərdən və imtiyazlardan əl çəkir. O, ədaləti yeddi kümbəd nəşəsindən və şahlıq şövkətindən üstün tutur. Yeddi gözəlin yeddi hikmətli rəvayətindən yeddi zəlilin yeddi acı həqiqəti Bəhram üçün daha ibrətamiz dərs olur. Yeddi gözəllə keçirdiyi nəşəli günlərdən yeddi məzlumun zindandan azad edilməsi Bəhrama daha xoş gəlir. O, nəşə xanələrindən ədl dərgahına yüksəlir, nəşə peykərini ədalət peykərinə qurban verir.

Şair, bir qayda olaraq, öz qəhrəmanlarının təkamül yolunu nəşədən ələmə, özünüsevərlikdən özgəsevərliyə doğru aparan yolda görür. Qəhrəman bir dəyərlər sistemindən başqa dəyərlər sisteminə keçir. Məsələn, Xosrov şahlıq dünyasından məhəbbət dünyasına, Bəhram isə nəşə dünyasından ədalət dünyasına keçir. Ədalət də məhəbbət kimi insandan yüksək mənəvi və ruhi kamillik tələb edir. Ədalət dünyasına çatan Bəhram özünü unudub, xalqı üçün yaşayır. O, başa düşür ki, yeddi kümbəd həyatı və yeddi kümbəd nəşəsi nə qədər şirin olsa da, ötəridir, fanidir. Ona görə də Bəhram başqa bir məsləkin yolunu tutur.

***Sədaqətlə allahpərəst oldu,***
***Özünə pərəstiş etməkdən əl çəkdi (282).***

Başqa poemalar kimi “Yeddi gözəl” də Allaha sitayiş, peyğəmbərin meracı və şahın ənənəvi tərifi ilə başlanır. Sonra sözə sitayiş və söz haqqında hikmətlər açıqlanır. Burada Nizami özünün insan fəlsəfəsinin əsaslarını ifadə edir və bir növ poemanın əsas hadisəsi və əsas qəhrəmanı üçün zəmin yaradır. Şairin söz haqqında düşüncələrinə əvvəlki poemalarda da rast gəlmək olar. Orada söz ruhun ifadəsi və ilahi hikmətin yerdəki təzahürü kimi təsvir olunurdu. Burada isə söz varlığın ibtidası, yaranışın ən yüksək “fərzəndi” kimi təqdim olunur. “Adam oğlundan yadigar qalan (yalnız) sözdür” (38). Deməli, varlığın ibtidası da, sonu da sözdür. Hər şey sözdən başlanır və sözlə də əbədiyyətə qovuşur.

Şairin fikrincə, insanın çata biləcəyi əbədiyyət məqamı “özünü dürüst dərk etməkdir”. Özünü dərk etmiş insan, yəni dünyaya və Allaha nisbətdə öz yerini düzgün təyin etməyi bacaran insan əbədiyyətə qovuşur. Özünü dərk etməyən kəslər “bu qapıdan girib, o qapıdan çıxırlar”, həm özündən, həm də dünyadan bixəbər gedirlər. Qafil yaşayanlar Günəşi belə görmürlər. Ən acınacaqlısı da odur ki, beləlləri heç vaxt “öz ayranına turş demirlər”. Qafil insan ömrü boyu dünyadan özü üçün nəyi isə qoparmağa çalışır, lakin dərk edə bilmir ki,

***Zirək quş yem axtararkən***
***Hər iki ayağından tora düşür (39).***

İnsan var-dövlətdən, dünya malından özü üçün tor qurur və özü də o tora düşür.

***Səy elə ki, xalq işinə yarayasan,***
***Öz xeyir işinlə dünyanı bəzəyəsən,***
***Gül kimi xoşxasiyyət olmaq yaxşıdır***
***Ki, sənin xoş ətrin üfüqləri bürüsün (40).***
***İnsanın gözü qızıldan yox, ağıldan nurlansa daha yaxşıdır. Qızıl olan yerdə ədalətsizlik də var.***
***Yüz min başın boynu vurulur ki,***
***Bir boyun yoğunlansın (43).***

Ona görə də “istəməmək istəməkdən çox yaxşıdır” (43). “Canpərəstlik yekəqarınlıqdan yaxşıdır” (44). Dünyanın ədalətsizliyi ondadır ki, “pambığı kətandan seçə bilməyənin” “anbarları kətan və ipək ilə doludur” (45).

Bu fikirləri söyləməklə Nizami bildirmək istəyir ki, bütün bu cür məsələlər Bəhramın həyatında ortaya çıxacaq. Şair bu məsələlərin gələcək həlli üçün, yəni qəhrəmanın düşəcəyi ziddiyyətli vəziyyətin və faciələrin səbəbini açmaq üçün bir növ zəmin yaradır.

Bütün poemalarda olduğu kimi, “Yeddi gözəl”də də aparıcı qüvvə baş qəhrəmanın həyat yolu və onun xarakteridir. Bu bir daha göstərir ki, Nizami yaradıcılığının əsasını və onun ana xəttini insan məsələsi təşkil edir. “Yeddi gözəl” Bəhramın dünyaya gəlişi ilə başlayıb onun dünyadan köçməsi ilə yekunlaşır.

Bəhramın atası Yəzdigürd zalım şah idi. Onun övladı olur, lakin yaşamırdı. Ədalətsizlik toxumu səpilmiş Əcəm elində övlad bafat etmirdi. Bəhram anadan olanda münəccimlər onu Ərəbistana göndərməyi, yəni onun başqa torpaqda böyüməsini məsləhət görürlər. Göründüyü kimi, əsərin əvvəlində onun qayəsi və qəhrəmanın qarşısında duracaq əsas məsələ müəyyənləşdirilir: dünyanı bürümüş ədalətsizliyin yox edilməsi və ədalət bayrağının ucaldılması. İran elində bu missiya məhz Bəhramın üzərinə düşəcəkdir. Bəhram həm qalib, həm də ədalətli şah olmalıdır.

**(Ardı var)**